Misir sə□firi “arzuolunmaz şə□xs” elan edildi

Yazan
23.11.13 20:01 -



Türkiyə Misirin diplomatik demarşına cavab verib. Türkiyənin Qahirədəki səfiri Hüseyn Avni Botsalı bu gün Misir XİN-ə çağırılıb. Ona elan edilib ki, Misir Türkiyə ilə diplomatik əlaqələri müvəqqəti işlər vəkili səviyyəsinə endirir və səfir bu ölkədə “arzuolunmaz şəxs” elan olunur. Səfirə Misiri tərk etmək üçün noyabrın 29-unadək vaxt verilib.

Bundan sonra Misirin Türkiyədəki müvəqqəti işlər vəkili Türkiyə XİN-ə çağırılıb. Türkiyəni tərk edən səfir Əbdürrəhman Sələhəddinin “arzuolunmaz şəxs” elan edildiyi onun diqqətinə çatdırılıb.

“Üzüntü duyduğumuz bu durumun tarix qarşısındakı məsuliyyəti Misirdə 3 iyul çevrilişi ilə hakimiyyətə gələn müvəqqəti idarəçiliyin üzərinə düşür. Dost və qardaş Misirin ən qıza zamanda sabitlik və demokratiyaya qovuşmasını və nəticədə ölkələrimiz arasındakı münasibətlərin normala dönməsini arzu edirik”, - Türkiyə XİN-in bəyanatında deyilir.